

# *“Gediş kartından istifadə qaydaları”*

- **Kartın satış qiyməti 2 (iki) manat təşkil edir. Bu məbləğ balansa əlavə olunmur.**

- **Kartın balansı stansiyalarda yerləşən elektron köşklər vasitəsilə və yaxud bilet kassalarında istənilən məbləğdə artırıla bilər.**

- **Kartdan hər gedişə yalnız bir şəxs istifadə edə bilər.**

- **Sərnişin qatara minmək üçün turniketdən keçdikdən sonra 15 dəqiqə müddətində gedişdən imtina edərsə, onun kartından çıxılmış vəsait geri qaytarılır. Bu müddət bitdikdən sonra sərnişin gedişdən imtina edərsə, giriş stansiyasından ən uzaq stansiyaya olan məsafə üçün nəzərdə tutulmuş gediş haqqı kartın balansından avtomatik çıxılır.**

- **<u>Kart geri qaytarılarkən:</u>**

✓ **kartın dəyəri və balansında olan məbləğ tam şəkildə sərnişinə ödənilir.**

✓ **kart istifadəyə yararsız halda olduqda, onun dəyəri istisna olmaqla, balansında olan məbləğ tam şəkildə sərnişinə ödənilir.**

- **<u>Standart vaqona</u> minik üçün kartın balansında minimum 40 (qırx) qəpik, <u>Biznes vaqona</u> minik üçün isə kartın balansında minimum 2 (iki) manat vəsait olmalıdır.**

- **<u>Biznes vaqona minik üçün</u> sərnişin turniketdən keçdikdən sonra biznes köşkündə qeydiyyata düşməlidir və əldə etdiyi qəbzi biznes vaqon bələdçisinə təqdim etməlidir.**

- **Sərnişin giriş və çıxış stansiyalarında kartı turniketdə oxutdurur və kartın balansından səfər edilmiş məsafəyə uyğun vəsait çıxılır. Kartın balansında gedilən məsafəyə uyğun kifayət qədər məbləğ olmadıqda, kartın balansında olan məbləğ çıxılır və qalıq məbləğ mənfi balans kimi kartın balansında qeyd olunur. Məsələn: Kartda 0.40 qəpik balans var, amma sərnişin Sumqayıt stansiyasına səyahət edib. Balansda olan 0.40 qəpik çıxılır, yerdə qalan 0.60 qəpik mənfi balans kimi kartda qeyd olunur. Karta yenidən vəsait yükləndikdə, mənfi balans yüklənmiş vəsaitdən çıxılır.**

- **Sərnişin hər hansı bir stansiyada <u>kartı oxutdurmazsa</u>, giriş stansiyasından ən uzaq stansiyaya olan məsafə üçün nəzərdə tutulmuş gediş haqqı kartın balansından avtomatik çıxılır.**